Həsənova, Şəfəq (2019). Bədii Mətnlərdə Demonizm Ənənəsi və Bu Faktorun H. Cavid Yaradıcılığında Təzhürü, *Uluslararası Uygur Araştırmaları Dergisi*, Sayı: 2019/14, s. 111-120.

# BƏDII MƏTNLƏRDƏ DEMONIZM ƏNƏNƏSI VƏ BU FAKTORUN H. CAVID YARADICILIĞINDA TƏZHÜRÜ

[Araştırma Makalesi / Research Article]

*Şəfəq HƏSƏNOVA*[*]

***Geliş Tarihi: 25.11.2019*** ***Kabul Tarihi: 13.12.2019***

***Özet***

*İbtidai təfəkkürün ifadə forması kimi mövcud olan xeyir və şər anlayışı mifoloji düşüncəni formalaşdıran əsas ünsürlərdən biri olmuşdur. Bütün arxaik m ifologiyalarda müxtəlif adlarla tanınan bu mifoloji varlıqlar daha çox esxotoloji xarakter daşıyır. İstər Şərq istərsə də Avropa mifoloji təsəvvüründə dünyanın düzənini təhdid etməklə yanaşı insana da ziyan verən bu varlığın adı zamanla ümumilərək qəlib mətnlər formalaşdırmışdır. Daha sonra isə b u qəlib mətnlər dini kitablara da yansımışdır. Qərbdə Demon, Dyavol, Şərqdə İblis, Şeytan adı ilə tanınan bu varlıq orta əsrlərdən etibarən bədii mətnlərin də mövzusuna çevrilir. Azərbaycan ədəbiyyatınada Nizami, Fizuli, Nəsimi kimi görkəmli şairlərin sufi-mistik dünya görüşündə şərin təmsilçisi kimi ehtiva edilən iblis bəzən div kimi də təqdim olunur. XX əsrdən romantizm ədəbiyyatında İblis obrazı H. Cavid yaradıcılığında xüsusi yer alır. İblisin demonizmini insan ruhu ilə müqayisə edən şair "İblis" dramında İblisi müharibənin səbəbkarı kimi dəyərləndirir. Müharibələri isə nəfs və təkəbbürün nəticəsi kimi insanın ruhunu şeytana satması ilə əlaqələndirir.*

***Açar Sözlər:*** *Mifolojiya, Dini Mətnlər, Bədii Ədəbiyyat, Demonizm, H. Cavid.*

# YAZILI METİNLERDE ŞEYTAN (DEMON) KARAKTERİ VE BU KARAKTERİN H. CAVİT'İN EDEBİ YARATMALARINA YANSIMASI

***Özet***

*İlkel düşüncenin bir ifadesi olarak iyilik ve kötülük kavramı, mitolojik düşünceyi şekillendiren temel unsurlardan biriydi. Tüm arkaik mitolojilerdeki farklı isimlerle bilinen bu yaratıklar, eskatolojik karakterdedir. Hem Doğu'nun hem de Avrupa'nın mitolojisinde insan dünyasına zarar veren bu yaratığın adı zaman içinde kalıplaşmış metinlere dönüşmüştür. Daha sonra bu metinler dini kitaplara yansır. Batı'da İblis, Dywol, Doğu'da Şeytan olarak bilinen bu yaratık, Orta Çağ'dan beri edebi metinlerin konusudur. Nizami, Fuzuli ve Nesimi gibi tanınmış şairlerin tasavvuf mistik dünya buluşmasında şeytan kötülüğün simgesine dönüşür. Yirminci yüzyılın romantizm literatüründe Şeytanın imajı, H. Cavid'in eserinde özel bir yer tutar. "Şeytan" dramında şeytanın demonizmini insan ruhuyla karşılaştıran şair, şeytanı savaşın nedeni olarak kabul eder. Savaşlar aynı zamanda açgözlülük ve kibir nedeniyle insan ruhunu şeytana yenik düşürür.*

***Anahtar Kelimeler:*** *Mitoloji, Dini Metinler, Edebiyat, Demonizm, H. Javid.*

[*] *Öğr. Gör., Azerbaycan Devlet İktisat Üniversitesi (UNEC), Azerbaycan Dili Bölümü, e-posta: safak-hasanova@mail.ru*
*Orcid: 0000-0002-2061-9498*

# THE TRADITION OF DEMONISM IN LITERARY TEXTS AND THE IMPACT OF THIS FACTOR ON THE CREATION OF H. JAVID

***Abstract***

*The notion of good and evil as a form of expression of primitive thinking was one of the main elements that shaped mythological thinking. These mythological creatures, known under different names in all archaic mology, are of eschatological character. The name of this creature, which harms the human world, in the mythological imagination of both the East and the European, has evolved into molded texts over time. Later, the texts were reflected in religious books. This creature, known in the West as Demon, Dywol, Devil in the East, and Satan, has been the subject of literary texts since the Middle Ages. In the Sufi mystic world of prominent poets such as Nizami, Fizuli and Nasimi, the devil is sometimes represented as a demon. In the romance literature of the twentieth century, the Devil's image takes a special place in the work of H. Javid. In the "Devil" drama, the poet who compares the demonism of Satan to the human spirit, considers the Devil to be the cause of wars. He linked wars, as a result of greed and arrogance of a human soil, to Satan.*

***Keywords:*** *Mythology, Religious Texts, Fiction, Demonism, H. Javid.*

## Giriş

İblis obrazının ilk təzahürü təbii ki, ibtidai mifoloji mətnlərdə öz əksini tapmışdır. Xaos-kosmos münasibətlərinin ifadə foması kimi biruzə verən bu düşüncədə Şər Tanrısı Yaxşılıq Tanrısı ilə daim mücadilədə olan varlıq kimi ortaya çıxmışdır. Daha çox esxololoji düşüncə ilə bağlı olan şər qüvvənin daşıyıcı əsasən yer altında yaşayan, insanlara ziyan verən obraz kimi düşünülmüşdü. Şer tanrısı da xeyir tanrısı kimi güc və qüdrət sahibi kimi düşünülürdü.

## 1. Mifoloji Mətnlərdə İblis Obrazı

İstər Şərq, istərsə də qərb mifologiyalarında şər qüvvənin təmsilçisi kimi müxtəlif mif personajları ilə qarşılaşmaq mümkündür. Belə mifoloji mətnlər Misir, Şumer-Akkad, Türk, İran miflərində o, cümlədən Yunan, Roma, Skandinav ibtidai mətnlərində rastlanılmaqdadır.

Misirlilərin mifoloji görüşlərində Tanrı Set qəzəb, qum fırtınaları, məhv, xaos, müharibə və ölüm tanrısıdır. Epitet olaraq "qüdrətli" adı daşıyan Set II Ramzesin hetlərlə müqaviləsində Setin adı hetlərin tanrıları ilə birlikdə xatırlanır (Mifi Narodov Mira, 1987: 87).

Skandinav mifologiyasıda da biz şərin prototipi olan Loki obrazına rast gəlirik. Ümumgerman panteonuna şər Tanrısı kimi daxil olan Loki obrazına İsland saqaları "'Böyük Edda' və 'Kiçik Edda'" əsərlərində rast gəlmək olar. Odinlə qardaş olan Loki öz hiyləğərliyi, Tanrıların düzənini pozan biri olması onu Aslar ailəsinin düşməninə çevirir" (Mladsaya Edda, 1970: 206). İblis obrazının ilkin versiyasına İran mifologiyasında da rast gəlinir. Əhriman və Hörmüz qarşıdırması buna bariz nümunədir.

Türk mifologiyasında isə Şəri özündə ehtiva edən qüvvə Erlik adlanır. Şər tanrısı Erlik də Ülgən kimi Qara xan tərəfindən yaradılmışdır. Erlik pisliyi, şəri təmsil edir. Bilgisizdir, dağıdıcıdır ancaq şərin arxasındadır. Qara, buruq, uzan saçları belinə qədər uzanır. Haça saqqalı dizinə qədər uzanır. Uzun bığlarını qulaqlarının arxasından asmışdır.

Şumer mifologiyasında da şərin təmsilçiləri diqqət çəkir. Bunlardan biri də Tiamatdır. Tiamat şər və qəzəb tanrıçasıdır. O, əjdahaların və bu kimi xtonik qüvvələrin başçısıdır.

Mesopotomiyanın mifik təsəvvürün nəticəsi kimi qadın iblis-Lilit də maraqlı obrazlardandır. Lilit kişiləri yoldan çıxarır. Onun bu hərəkəti sevgidən deyil, cinləri ve şeytanları, cadukünləri doğurmaq üçündür. Lilitin çox gözəl bədəni və ayaqları var. Esatirə görə Lilit Adəmin birinci arvadı olmuşdur. Mələklərin məşvərətçisi vəzifəsində olan Lilit Savların kraliçası mövqeyinə yüksəlmişdir. Geniş yayılmış əfsanəyə görə Allah öncə torpaqdan kişini və qadını yaradır. Lakin Lilit tezliklə başa düşür ki, o da Adəm kimi, tam hüquqludur. Bu zaman o Adəmdən ayrılaraq dünyadakı ilk boşanmanı gerçəkləşdirir. Mələklər Liliti geri gətirmək üçün çox dilə tutsalar da bunun heç bir xeyri olmur. Lilit yer üçündə insanlardan doğulan bütün uşaqları öldürməyə and içir. Bu zaman mələklər Liliti lənətləyirlər. Ondan doğulan evladlardan hər gün yüzü ölümə məhkum olunur. İnsanlar övladlarına yalnız müqəddəs səmavi adlar qoymaqla övladlarını Lilitin cəngindən qurtara bilirlər. Adəmə tabe olması üçün bu dəfə Allah Həvvanı Adəmin qabırğasından yaratmalı olur (URL1).

Avropa dini-mifoloji təsəvvürlərinə görə iblisin ümumiləşdirilmiş adı Lütsiferdir. Bir çox insanlar üçün, Lüssifer adı yer üzündə bütün şərin təcəssümüdür. Düşmüş mələk, satana, şeytan –o tarixdə bir çox adlar altında görünür, lakin eyni rolu oynayır. Ancaq bu həmişə belə olmayıb.

Bəzi xalqların mifoloji mətnlərində seytan müxtəlif obrazlar şəklində meydana çıxa bilər. Şeytanın quş şəklini alması hələ çox qədim mifologiyalarda görünməkdədir. İlk növbədə qeyd edəcəyimiz quşlar sırasına qarğa daxildir. İstər şərq, istəq qərb mifologiyasında o cümlədən nağıl və deyimlərdə qarğa şərin carçısı kimi təqdim olunurdu. Hətta Nuhun gəmisinə qonan qarğa da iblisin təcəssümü idi. Qarşanın yalnız forması, görkəmi, qaralığından ziyadə Avropa mifologiyasında Tanrı Votanın da qarğa cıldına girməsi inamı mövcud idi. Avropa mifologiyasında iblisin göstərici qismində bəzi hallarda xoruz iştirak edir. Qrimm yazırdı ki, İblisin ətəyinin altından at nalı ilə yanaşı xoruzun dimdiyi də asılır (Grimm, 2007: 271).

Şeytan obrazı zamanla mifoloji mətnlərdən dini-kanonik mətllərdə yer almış və zamanla da bədii ədəbiyyatın mövzusuna çevrilmişdir. Şeytana inanma xristianlıq, yəhudilik, islam və bir sıra digər dinlərin doktrinasının ən vacib hissəsidir. Şeytana inanm yalnız tarixi məsələ deyil. Şeytanın mövcudluğu ilahiyyatçılar tərəfindən aparılan və aparılmış bir müzakirə mövzusu idi. Həm də bu məsələ, əsasən, dünyada baş verən hər şeyə böyük təsir göstərən şeytanın gerçək varlığının doktrinasını şəxsi bir varlıq kimi müdafiə edən aparıcı kilsə rəhbərlərinin ictimai çıxışları zamanı qaldırılmışdır. Buna görə də, şeytanın dində rolu, bəzi dini təlimlər sistemində hansı yer tutduğu mühüm əhəmiyyət kəsb edir.

Şeytanlar, şeytanların varlığına inanmaq, yaxşılıq tanrıların mövcudluğuna olan inanc ilə eyni qədim mənşəyə aiddir. Dinin erkən formaları təbiətdə görünməz fövqəltəbii varlıqlar-ruhlar, yaxşı və pis, faydalı və insana zərərli olan varlıq ideyası ilə xarakterizə olunur. Onun rifahı onlardan asılı hesab edilirdi: səhiyyə və xəstəlik, uğurlar və uğursuzluqlar.

### 2. Dini-Kanonik Mətnlərdə İblis Obrazı

Zamanla tarixi inkişaf nəticəsində müxtəlif antoqonist obrazlar, şərin təmsilçıləri konkretləşmiş obraz qazanmağa başlayır. Bu obraz ümumi ad olaraq Şeytan adlandırılır. Bütün dioni kitablarda istər, yəhudilikdə, istər xristianlıqda istərsə də islamda Şeytan xeyirxahlığa, yaradıcığı qüvvəyə asi çıxan və cənnətdən qobulandır. Öncə ən qədim dini kitab olan "Əhdi-ətiq" əsərinə nəzər salaq. "Əhdi-ətiq" mətnlərində şeytan Allaha qarşı çıxan və inslanra ziyan verəndir. Xalq inanclarında şəytanın analoqiyası əslində real əsaslara dayanır. İlan tipik triksterdir. Çox güman ki, dini kitablarda ilanın şeytan kimi təcəsssünü qədim mifologiyalardakı əcdahanı yaxud dünya ilanının assosasiyasını yaradır. Daha sonrakı dini kitablarda "İncil" və "Quran" da da ilan şeytanın təcəssümünə çevrilir. İncildə ilan İudanın qəlbinə girir. (Lukadan Yevangelə: İncil). "Əhdi-cədid"də şeytan "şərin

sahibidir”. O burada riyakâr donunda çıxış edir, müsbət qəhrəman donuna girir (Apostol Pavelin ikinci vəyhi). Qiyamət günü –Apokalipsis dövründə isə şeytan Antixristin simasında təcəssüm etdirilir. İlkin isavilik dövründə şeytan konkret şəxsiyyət olaraq meydana çıxmır, öncə şərin ümumi personifikasiyası kimi ortaya çıxır. “Əhdi -Cədid”də iblisin şeytanla birgə canlandırılması şərhçilərin bu adları şər atan və asi kimi dəyərləndirməsinə səbəb olmuşdur. Xalq yaradıcılığında eyni ilə Lütsifer və Velzuvel kimi ikiləşmiş obraz kimi çıxış edir. Lütsifer konkret şəkildə “Əhdi -ətiq” və “Əhdi-cədid” və “Quran” kitabında cənnətdən qovulmuş mələk kimi təqdim olur. Xristianlıqda xüsusən də mistik ədəbiyyatda Şeytan konkrek dona giri, şəxsiyyətə çevrilir. Bu dövrdə Şeytan artıq Allahın konkret düşməninə çevrilir.

Fikrimizə aydınlıq gətirmədən dini kitablarda yer alan Şeytanın funksiyalarına nəzər salaq: Quranın 2:34 də deyilir: “Və o zaman mələklərə “Adəmə səcdə edin! dedik. Həmən səcdə etdilər. Yalnız İblis dayandı, qüruruna yedirə bilmədi. Asi oldu”

“Tövrat”da isə şeytanla bağlı deyilir: Yəhya 8:44 ayəsində İsa peyğəmbər deyir ki, Şeytan «həqiqətə bağlı qalmadı». Deməli, bir vaxt o, saleh və nöqsansız idi.

Yehovanın yaratdığı bütün şüurlu varlıqlar kimi, sonradan Şeytan olan bu mələyin də xeyirlə şər arasında seçim etmək azadlığı vardı. Bu mələk Allaha qarşı çıxmaqla və ilk insanları bu işdə ona qoşulmağa təhrik etməklə «düşmən» mənasını daşıyan Şeytan oldu (Tövrat, Yaradılış 3: 1-5; İncil, Vəhy 12: 9).

Erkən Orta əsrlərdən başlayaraq, "Şeytan" anlayışının şərhinin də müxtəlif dinlərdə, yəhudilikdə, xristianlarda, islamda irəliləyişlər və sonradan müxtəlif ordenlərin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Məhz bu məqam zamanla İblis obrazının bədii mətnlərə daxil olmasına səbəb olurdu. Bunun nəticəsi kimi isə İblis obrazı insan-iblis paralelinin yaranması səbəb olurdu.

### 3. İblis Obrazinin Klassik Dövr Azərbaycan Bədii Mətnlərində Təzahürü

Şeytan obrazının bədii ədəbiyyatda təzahürü böyük bir inkişaf mərhələsi keçmişdir. Qədim dövr Azərbaycan fəlsəfi-dini mətnlərində, daha dəqiq desək, “Avesta”da Əhriman - Hörmüz qarşıdurması açıq-aydın şəkildə görünməkdədir. Bir müddət sonra bu mövzu Nizami yaradıcılığında öz əksini tapır. Nizami Gəncəvinin “Yeddi gözəl” poemasında Çin qızın söylədiyi rəvayətdə məhz Zərdüştlük təliminə əsaslanan Xeyir və Şər simvolik obrazlarının qarşılaşmasının şahidi oluruq.

Öz ədəbi yüksəliş dövrünə XII əsrdə başlayan Azərbaycan ədəbiyyatında İblis obrazı ilk baxışdan konkret şəkildə öz əksini tapmasa da bu baxış tərzi Xeyir və Şər simvolik obrazları şəkilində Nizami yaradıcılığında yeni poetik əhval ruhiyyədə görünməkdə idi Təməlində Avesta təliminə əsaslanan Zərdüşt fəlsəfi düşüncəsi yer alsa da bu hal yəni Xeyir və Şər çarpışması bu və ya digər şəkildə Azərbaycan ədəbiyyatında təzahür etdirilmişdi. “Yeddi gözəl” əsərində isə şair şeytanı nəfsinə həris olan insanlarla müqayisə edirdi. Daha sonra biz Nəsimi, Füzuli yaradıcılığında da müəyyən mənada Şeytanla bağlı fikirlərə rast gəlirik. Lakin burada söhbət konkret şər və ya Şeytan mövzusundan getmir. Sözü gedən şairlər insanın yalnış əməllərini şeytani xislət kimi təqdim etməyə çalışırlar. Bunun da özünə məxsus səbəbləri vardır. Məsələn Nəsimi yaradıcılığına nəzər salsaq görərik ki, hürufilik fəlsəfəsinə yüklənmiş Nəsimi yaradıacılığında xeyir də, şər də insanın özünə məxsusdur. Kamil insan Allahdır. Cahil və qafil insan isə divlə müqayisə olunur. Div savadsızlığın kobudluğun, şeytani xislətin göstəricisidir. Məhz bu səbəblə də şair bu xüsusiyyətləri insanın mənəvi ruhani keyfiyyəti kimi təqdim etməyə çalışır. Kamran Əliyev Nəsimi və mif məqaləsində mövzunu bu şəkildə açmağa çalışmışdır”

“Can ilə kim ki, könlünü eşqinə qılmadı vətən,

Divə müsəlləm eylədi məmləkəti-Skəndəri (URL2).

Nəsimiyə görə, kim ki, mələyə səcdə qılmır, onun adı Divdir. Süleyman məntiqindən quş dili öyrənmək istəməyən Divə uymuşdur.

Eşqin bəhrinə baş vurmayan da Divdir (URL2).

Yaxud:

İblis əzəli lənət olub lənətə qaldı.

Lənət sözünü dünyada şeytan dəxi bilməz (URL2).

Füzulidə də təxminən Nəsimi yaradıcılığında olduğu kimi İblisə baxiş mənəvi xarakter daşıyır. Füzuli "Mətləül-etiqat" əsərində cin, şeytan mövhumi təsəvvürlərindən bəhs edərək yazır: "Filosoflar beş cövhərin, yəni maddə, forma, cisim, ruh və ağlın mövcudiyyətini isbat etmişdir...ehkama gəldikdə "mövcudiyyəti üç hissəyə ayırmışlar: birincisi mahiyyətcə xeyir olub, şəri olmayan varlıq ki, mələkdir. İkincisi mahiyyətcə şər olub, xeryri olmayan varlıq ki, Şeytandır, üçüncüsü həm xeyir, hən də şər üçün qabil olan Cindir" (Füzuli, 1958: 21).

Füzuli yaradıcılığında Çin, Şeytan, İblis məvhumlarından mövhumi qüvvələrə inanan insanları cəhalət yuxusundan ayıltmaq məqsədi üçün istifadə olunmuşdur. Onun "Yeddi cam" və "Rindü zahid" əsərlərində bu kəliməyə rask gəlirik.

Fədai isə "Bəxtiyarnamə" əsərində tələsik işin şeytan əməli olduğunu söyləyir.

Ki, səbr ilə olur hər müşkül asan

Ki, təcil eyləməkdir feli şeytan

Vaqif və Vidadi şeirlərində isə İblis saxtakarlığın rəmzi kimi verilmişdir (Füzuli, 1958: 27).

M.F. Axundovun yaradıcılığında da cin, əcinə eytan kəliməslərinə rast gəlirik. Xüsusən də "Hekatəti Müsyö-Jordan həkiminnəbabat və dərviş Məstəli şah" komediyasında bu kəlimələrə rast gəlinir.

Sabir yaradıcılığında da biz cin və şeytan kəlimələrini tez-tez göprməkdəyik.

İndi adamlar deyəsən cindilər.

Cin nədi, şeytan nədi bidindilər (Sabir, 1962: 180).

Sabirlə eyni dövrü paylaşan, böyük Azərbaycan ədibi Ə. Haqverdiyevin yaradıcılığında da ibli, cəhənnəm, xortdan kimi obrazlara rast gəlinir. Xüsusən də Haqverdiyev "Pəri Cadu" facisəsində iblis obrazını konkret xarakter olaraq canlandırmışdır. Ardınca isə böyük mütəfəkkir H. Cavid yaradıcılığında İblis mövzusu öz əksini tapır.

**4. Hüseyn Cavid Yaradıcılığında İblis Obrazı**

Avropa romantizm ədəbiyyatında olduğu kimi, Azərbaycan romantizmində də İblis obrazına müraciət dövrün ictimai-siyasi vəziyyətindən doğan labud hadisə kimi meydana çıxır. Xüsusən həmin dövrdə istər, Avropada istərsə də Şərqdə gedən müharibələr, xalqın vəziyyətinin bu müharibələrin nəticəsində ağırlaşması, ədəbiyyatda şeytan obrazına müraciət olunmasına şərait yardırdı. Azərbaycan romantizminin banilərindən olan Hüseyn Cavid də yaradıcılığında bir çox müxtəlif xarakterlərlə yanaşı İblis obrazına müraciət edir.

Cavid fəlsəfi düşüncəsində İblisin mövqeyinə və əsərin təhlilinə keçmədən öncə Cavid yaradıcılığına nəzər salmaq yerinə düşər. XX əsr Azərbaycan romantizmin banilərindən olan Cavid əfəndi dram əsərləri ilə Azərbaycan ədəbiyyatı irsini zənginləşdirmiş oldu. Cavid yaradıcılığının ən mühüm cəhətlərindən biri də onun klassik Azərbaycan ədəbiyyatı

ənənələrinə dərindən bələd olması, istər islami, istər sufi-mistik dünya görüşünü dərindən mənimsəməsi eyni zamanda həmin dövr Avropa ədəbi-bədii üslubunu dərindən bilməsi onun əvəzolunmaz bədii ədəbiyyat nümunələri yaratmasına səbəb oldu. Bu isə ədibin uşaqlıq çağından aldığı təhsil, onun yeniyetmə dövründə İranda təhsili davam etdirməsi və nəhayət Türkiyədə oxuduğu dövrdə tənzimat dövrü türk aydınları ilə birgə görsərdiyi ictimai ədəbi fəaliyyəti Cavid yaradıcılığına birmənalı şəkildə yansımış oldu. Cavid yaradıcılığı tarixi proseslərdən heç bir şəkildə kənarda deyildi. Bunu bir çox əsərlərində o, cümlədən də "İblis" dramında müşahidə etmək mümkündür. "Peyğəmbər", "Şeyx Sənan" əsərlərində dramaturqun, islam və sufi-mistik ənənələri dərindən bilməsinə.

Hüseyn Cavid yaradıcılığının maraqları məqamlarından biri də "İblis" dramı ilə bağlıdır. "İblis" (1918) mənzum faciəsində yazıçı müharibələri pisləyir, müharibənin ağır nəticələrini açıb göstərir. Bu əsər xoşbəxtliyi var dövlət, zorakarlıq kimi qavrayan cəmiyyətin ictimai faciəsini ifadə edirdi. 20- ci illərdə səhnəyə qoyulan bu əsər xalq arasında böyük sevgiylə qarşıalndı. Bir müddət sonra ədəbiyyat tənqidçiləri o cümlədən Abdulla Şaiq, M.C. Cəfərov kimi şəxsiyyətlər fikir bildirmiş oldular. İblis əsərinin əsas məğzini imperialist savaşlara qarşı üsyankarlıq təşkil edirdi. Qəribədir ki, Marlonun Faustunda olduğu kimi bu əsərdə müharibə dövrünə təsadüf edirdi. Osmalı imperiyasının çöküş dövrünü yaşadığı bir zamana təsadüf edən, Osmanlının bir çox ölkələrlə o cümlədən ingilislərlə və ərəblərlə savaş dövrünə təsadüf edirdi. Bu dövrü Cavid əfəndi çox gözəl bilirdi. Türkiyə mühitinə yaxından bələd olan, Türkiyədə bir müddət təhsil alaraq həmin ölkənin ziyalıları ilə eyni düşüncəni paylaşan Cavidin məhz belə bir mövzuya müraciət etməsi təsadüfü deyildi. Müharibənin sonu Osmanlı orudusunun ona məxsus olan ərazilərdən cəkilməsi ilə bağlı idi. Bu həmin dövr idi ki, İngilislərlə bağlanan Lozan sülh müqaviləsinə əsasən türkmən elləri Ərbil, Süleymaniyə, Kərkük kimi ərazilərdən Türkiyə dövlətinin uzaqlaşdırılması dövrünə təsadüf edirdi. Bu mənada əsərdə tarixilik də, yetəri qədər mövcuddur.

İblis əsərində klassik Avropa mədəniyyətində müşahidə etdiyimiz kimi mələklə iblisin yanaşı görünməsi ilə müşahidə olunur. Hər bir sənətkar klassik irsə öz dövrünün sosialoji və estetik mövqeyindən yanaşır. Bu yerdə ustad idealı yeni fikir çaları ilə təkrarən doğulur, həmin sənətkarın müasir amalına çevrilir.

Təbii ki, klassik ənənə dünya mədəniyyətinin güclü estetik sahələrindən biri olan demonizm anlayışı ilə də bağlıdır. Demonizm estetik kateqoriyası fəlsəfə və bədii yaradıcılıqda qədimdə olduğu kimi də, müasir ədəbiyyatda da öz mövqeyini qorumaqda idi. Lakin demonizm anlayışına müxtəlif dövrün müdrik idrak sahibləri mahiyyətcə eyni cür yanaşmışlar; cəmiyyət hadisələrində baş verən siyasi və mənəvi eybəcərliyi ifşa, tənqid və inkâr edən estetik fikir tərzi kimi baxırdılar. Bir qayda olaraq, fəlsəfə və poeziya da demonizm ənənəvi dini-mistik rəmzlə şərtləndirilmişdir. Romantik poeziyada demonizm "ölüm və həyat", "ideal və həqiqət" problemlərinin fəlsəfə-estetik həllini verir. Təsadüfi deyildir ki, Caviddə, habelə başqa görkəmli dünya sənətkarlarında titanizm romantizmin tərkib hissəsi kimi hər zaman ideal və həqiqət, ölüm və həyat cəbhələrində çarpışan mütərəqqi qüvvələrin rəmzi olaraq təsvir edilmişdir. Titanik qəhrəman adətən faciəli mühitlə əhatə olunur. O, həyatda və əxlaqda müstəbidi məhv etmək ideyası izləyir. Bu baxımdan dövrünə, zamanına sığmayan sənət nəhənglərinin şəxsiyyəti onların çılğın qəlbində alovlanan məşəllə - demonik üsyanla, ictimai - siyasi zülmətə mənəvi işıq verməlırilə, zillət çəkən insanları mübarizəyə səsləmələrilə maraqlıdır. Təbii ki, bu çağırış romantizm poeziyasında demonik rəmzlər vasitəsilə təqdim edilir. Bəlli həqiqətdir ki, sayca az da olsa, hələ əsrimizin başlanğıcından adamları işığa çağıran Cavidin də səsini eşitməyə və onu dərk etməyə mənəvi ehtiyacı olan Vətən oğulları meydana gəlməyə başlayırdı. Bu illərdə şairin demonizm poeziyası yeni Şərq psixologiyasına, düşündə tərzinə, ideal və arzusuna uyğun romantik bir formada yaranmağa başlayırdı. Mütəfəkkir

şair öz sənət "mən"indən gələn boya və vasitələrlə yatmış ədaləti oyatmağa, adamların mənəvi dünyasının dərinliklərində saxlanmış qığılcımı alovlandırmağa çalışırdı. Bu günə qədər elmi-nəzəri diqqətdən kənarda qalmış Cavid yaradıcılığında dünya demonizm poeziyası ənənəsi məsələsi bu baxımdan ədəbiyyatşünaslıqda həllini gözləmiş ciddi və maraqlı problemlərdəndir. Xristian ölkə başçılarının zəngin yeraltı sərvətləri ələ keçirmək üçün müsəlman ölkələrində şeytanın ağlına belə gəlməyəcək törətdikləri kütləvi xalq qırğınlarının alovlandığı bugün də Cavid demonizm poeziyasında olan işıqlı ideal, dönməzlik və mübarizlik öz əksini saxlayır. Caviddə çox zaman müasir ictimai problem demonoloji-estetik rəng və vasitələrlə təqdim edilir. Bu məqamda əks qüvvələr xeyir və şər qütblərində ya real obrazlarla, ya da rəmzi-mifik şərtiliklərlə təcəssümünü tapır. Məsələn, "İblisin intiqamı" əsərində dünyaya ölüm və fəlakət gətirən Hitlerin və onun qatil əlaltıları olan Mussolini və Frankonun İblis obrazında səhnəyə gətirilməsi romantik poeziya üçün təbii olduğu qədər də maraqlıdır. Buradan belə nəticə çıxır: necə ki, planetimizdə hərb allahları, həyata və insan səadətinə zəhər qatan ölüm mələkləri yaşayır, Cavidin demonik poeziyası öz estetik təsirində qalır, ideya kəsərliyi ilə hər zaman mübarizənin ön cəbhəsində dayanmış olur. Cavidin "İblisi" birmənalı şəkildə dağılıcılıq, müharibə, atəş, insan qanına susamış tiranların simvolik fiquru kimi ortaya çıxır. "İblisin intiqamı"nda İblisin monoloquna nəzər salaq: "Eyvah, alovlar içində tutuşub yandım, Yenə ərzin mərkəzində yeni tufanlar, yeni yanğınlar var. Aman durmayın! Ürəyim, beynim, dəmirçi kürəsinə dönmüş. Şərab gətirin! Şərab! Şərab!.. Öylə şərab ki, könlümə yeni alovlar saçsın, qarşımda yeni, yeni pəncərələr açsın.... Mənə Epikürləri, Xəyyamları coşduran şərab lazım deyil. Yalnız Atillaları, Neronları tutuşduran kəskin şərabdan istəyirəm. Əvət öylə şərab istəyirən ki, onu içərkən şair Dantenin sönməz cəhənnəmi gözlərimdə canlansın. Və o cəhənnəmdə qıvrılan, böyüklük düşgünü ulu dahilər yenidən qarşıma çıxsın. Həm də cümləsi alovlar içində çırpınaraq mənə sığınsın. Öylə şərab istərəm ki, insan qanı ilə bəslənmiş olsun" (Cavid 2003a: 465) Cavidin yaradıcılığı boyu atəşə tutduğu yırtıcı fəlsəfə - insanları həşəratdan fərqləndirməyən, ona alçaq və miskin gözlə baxan qüvvətli fərdin "parçala, yaşa" etiqadı, mürtəce irqçilik nəzəriyyəsi İkinci Dünya Müharibəsini hazırlayan faşist ideologiyasında özünü büruzə verdisə, indi sionizm baxışında səslənir. Bu mövqedən Cavid irsinin ideoloji-estetik istiqaməti bu gün də dünyanı yenidən hərb meydanına sürükləməyə çalışan yeni dünya şeytanına - sionizmə və dirçəlməkdə olan faşist təşkilatlarına, onların qanlı hamisi olan xristian cahangirlərinə, habelə dildə adamlara əminamanlıq, aşkarlıq və demokratiya "bəxş edən", əməldə isə dini və milli cəbhələr yaratmaqla 20-ci əsrin son rübünü bəşər tarixinin ağılasığmaz faciə və fəlakət səhifəsinə çevirmək meylində olan qəddar militarist və hegemonçu ölüm allahlarına - əsrin dağıdıcı Böyük İblislərinə qarşı çevrilmişdir. Bəşəriyyəti oyuncağa çevirmiş hərb allahlarına, haqsızlıq və ədalətsizlik yayan tiranlara lənətlər yağdırmaq yalnız Cavid irsinə məxsus ideya-estetik keyfiyyət deyildir. Bu xüsusiyyət dünya ədəbiyyatının bütün korifeyləri üçün səciyyəvidir. Cavid poeziyası öz gərgin mənəvi axtarışlarına, ülvi amalına görə Şekspir, Şelli, Şiller, Höte, Lermantov və başqa dünya şöhrətli romantik şairlərin poeziyasına yaxındır. Yaradıcı ilham sənətkarı gerçəklikdə üz-üzə gəldiyimiz sərt gedişata, haqsızlıqlara, insan varlığını alçaldan hər şeyə qarşı qoyulan ideala səsləyir. Sənətkar həyatda gözəlliyi, həqiqəti, xeyirxahlığı təstiqləmək, fərdin varlığını nəcibləşdirmək, ucaltmaq üçün yaradır. O, insan şəxsiyyətində mənəvi yaradıcılığın yetkinliyini, fəallığını istəyi, insan dünyasının gözəlliyini burada axtarır. Bu istəklə həyat təzadları istər-istəməz toqquşur, sənətkar idealı güclü müqavimətə rast gəlir. Bəzi sənətkarlarda yaranan şübhəçilik, utopik meyillər buradan doğur. Mənəvi başlanğıcın fəallığını həyat təzadlarından üstün tutmaq, bədii idrakın işığını insan qəlbinə yönəltmək, insanın daha ülvi gerçəklik olduğuna inandırmaq, beləliklə, onu "mənəm-mənəm"likdən, şərdən çəkindirmək meyli dünya romantiklərinin, habelə Cavid romantizminin təbiətini səciyyələndirən başlıca xüsusiyyətdir.

Cavid azadlıq fədaisinə çevrilməyin ilkin şərtini kamilliyə yetməkdə görürdü. Təsadüfi deyildir ki, cəmiyyətdə baş verən məşəqqətlərin əsas səbəbini mənəvi yoxsulluqda görən bütün dünya romantikləri adamları özünüdərkə çağırır, onlara kamillik zirvəsini nişan verirlər. Bu mənada şairin "Hübuti-Adəm" şeiri olduqca maraqlıdır:

Diyorlar bir zaman Adəmlə Həvva Yaşarmış rövzeyi-cənnətdə tənha (Cavid, 2003b: 10).

-deyə Cavid burada insan əcdadının "tərcümeyi-hal"ından yalnız bir anı verir. Bəs, Adəmlə Həvvanın "öylə xoş məvadan" xaric edilmələrinə səbəb nə olmuşdur? Baş mələyin təhriki ilə yaradanın iradəsinə zidd getmək! Şər qüvvə əgər Bibliyada və məlum demonizm poeziya nümunələrində Həvvanı qadağan olunmuş idrak meyvəsindən yeməyə şirnikləndirirsə, "Hübuti-Adəm" şeirində insan əcdadında "adəmiyyət hissini qabardır". Dünya demonizm poeziyasında qadağan edilmiş meyvədən yemək idrak yolunu tutmaqdırsa, özünüdərk etməkdirsə, Cavid demonizmində "Adəmiyyət hissinin" qabardılması həmin bəşəri ideala yüksəlməkdir, özünü tapmaqdır.

Bayronda olduğu kimi, Cavid də Adəm-Həvva süjetindən, dövrün despotunu ifşa etmək niyyətindən başqa, insanın qəlb dialektikasını açmağa güclü meyl göstərir. Cavidə görə, xəstə ağıl xəstə cəmiyyətin məhsuludur. Romantik şair cəmiyyətin bu xəstə cəhətlərini kəsib atmaqla sağlam idraklı, sağlam mənəviyyatlı insan dünyası axtarır. Bayronda Adəmin yer həyatı təsvir edilirsə, Caviddə ilk cinayət addımının atılması, ulu insan əcdadının "Lahüti-fərrückah"dan sürgün edilməsi çağları qələmə alınmışdır. Qabil ata-anasının təqsirinə görə onu cəzalandıran tanrının ədalətsizliyinə üsyan edir. O, nəfsin əlində aciz qalmış valideynlərini günahlandırır. Onların bu hərəkətini naqislik kimi qiymətləndirir. "Hübuti-Adəm"də Mələk də Adəmi belə günahlandırır:

... Düşün, naqis bəşər, bir bax nə yapdın? Bu illərdə başqa romantiklərimiz kimi, Cavid də baş verən fəlakətlərin səbəbini nəfsin insan varlığına hâkim olması ilə bağlayırdı. Romantik şair insan nəfsinin ictimai mahiyyətini, onun sosioloji bəla olduğunu hələ qiymətləndirə bilmirdi. Cavidin "Qürubə qarşı" şeiri olduqca maraqlıdır. Şair ustad bir rəssam məharətilə qanlı müharibə dəhşətlərini təsvir edən unudulmaz poetik bir lövhə yaradır. O, insan fəlakətinin səbəbkarlarını nişan verməyə çalışır: onlar - bu şeytan qılıqlı şər insanlar "hər an atəş püskürən dumanlanmış böyük başlar" idi. Tökülən qanlar qarşısında heyrət edən lirik qəhrəman burada İblis kimi insan vəhşətindən dəhşətə gəlir.

Əgər Bayronun Qabili Allaha etiraz edirsə, Cavidin İblisi onu döyüş meydanına çağırırsa, "Qüruba qarşı" şeirində lirik qəhrəman başqasının əməllərinə qəlb ağrısı çəkir, müdhiş səhnələri bir-bir təqdim edir.

Cavid üçün İblis bəşəriyyətdə baş verən bütün fırtına və dəhşətlərin baisidir:

Həp din ilə, məzhəblə, siyasətlə cihanda

Hər fırtına qopmuşsa, əvət, bən varam orta.

Hər yerdə ki, vardır əzəmət, qəhr ilə dəhşət,

Hakimdir o yerlərdə şu qarşındakı xilqət (Cavid, 2003c: 226).

Cavid iblisi insandan uzaqda görmür. O, iblisi insanın ruhunda axtarır.

İblis nədir?

-Cümlə xəyanətlərə bais...

Ya hər kəsə xain olan insan nədir?

-İblis... (Cavid 2003c: 352) adlı iblisin məşhur monoloqunda Cavid İblisin insan xəyanəti ilə bağlı olduğunu, onun əməllərində olduğunu nəzərə çatdırmağa çalışmışdır.

Cavidin son əsəri hesab etdiyimiz "İblisin intiqamı" dramında bəşəriyyətə bəla kəsilmiş Adolf Hitlerin dünya iblislərinin Baş Komandanı olan İblis obrazında səhnəyə gətirir. Şair vaxtilə məqalələrin birində Birinci Cahan Müharibəsinə işarə edərək yazırdı: "Bu müharibə deyil, misri bir bəladır, bir taundur, aləm-şümul bir fəlakətdir". Bu romantik şairin şər kabusu qarşısında olan heyrətidir, etiraz və üsyanıdır! Şairin "Məzlumlar üçün" şeirində cahan savaşlarında tökülən qandan dəhşətə gələn şairin insanın yırtıcı təbiətinə qarşı çevrilmiş demonik üsyanı səslənir:

Estetik baxımdan Cavid və Bayron şübhəçiliyi fərqlənir. Belə ki, ədalətsizlik qarşısında dayanan Qabil olub keçənlərə təəssüflənir, kədərlənir, düşdüyü fəlakətdən xilas olmaq ümidini belə itirir.

Lermontovun irsində özünü qabarıq göstərən "yer və səma səltənəti" problemi baxımından Cavid və Lermontov şeiriyyəti arasında da qarşılaşdırma aparmaq gərəkdir. Sənan bəşəri qüdsiyyəti, ülvi məhəbbəti tanrı sevgisinə qarşı qoyduğu məqamlarda Lermontovun Demonu ilə eyni fəlsəfi təfəkkür qaynağına bağlı olduğunu nümayiş etdirir. Demon Tamaranın səcdəsinə enir, onu müqəddəslər müqəddəsi mənasında həyat və gözəllik tanrısı hesab edir. Sənan da Xumara "İştə Kəbəm də, cənnətim də budur" deyəndə eyni idrak yolunu tutur. İlahi hakimiyyətə arxa çevirən Sənan da, Demon da əvvəllər bağlı olduğu mənəvi-əxlaqi girdabın zillətindən yaxa qurtarıb təskinliyi, yaşamağın gözəlliyini, müqəddəsliyi bəşəri sevgidə tapır. Demon da, Sənan da azad, pak və səmimi insani hislərdən başqa ilahilik tanımır. Onların səcdəsinə endiyi məbud riya və hiylədən uzaq həqiqət və səadət məbududur - gözəllik və ülvilik məbudu.  Bu xətt üzrə Cavid mövqeyini sadəcə olaraq yalnız dinə qarşı müxalif hesab etmək yanlış fikir olardı. Burada şairin estetik-romantik kriteriyaya müvafiq bir şəkildə dini-mənəvi zülmətə, habelə ictimai-siyasi ədalətsizliyə və diktatorun qəddarlığına qarşı barışmaz demonik üsyan səsi eşidilir.

**Nəticə**

Hüsehyn Cavid yaradıcılığında öz əksini tapmış demonizm fəlsəfəsinə nəzər saldığımızda bir daha əmin olduq ki, Hüseyn Cavid Şər və Qərb mifoloji görüçlərinə yaxından bələd olmaqla yanaşı, dini kanonik mətnləri və onun Avropa və Şərq ədəbiyyatında mövcudluğuna dərindən bələd olmuş bir ədəb idi. Bu baxımdan da o məhz Türkiyə vasitəsi ilə mənimsəniş olduğu Avropa romantizminin incəliklərindən istifadə etməklə demonizm mövzusunu məh bu cərəyan aspektindən öz ədəbiyyatına daşımışdır.

Əgər intibah ədəbiyyatında bu hal insan şəxsiyyətinin meydana çıxması ilə bağlıdırsa, romantizmdə bu hal cəmiyyətin problemi kimi qiymətləndirilir. Bunun da əsas səbəbi dövrün qarşısına qoymuş olduğu ictimai tələblərdən irəli gəlirdi. Cavid yaradıcılığında öz əksini tapmış iblis isə bəşəriyyətin müharibə əsrinə çevrilərək ruhunu şeytana satması kimi təqdim olunur.  Cavid yaradıcılığında öz əksini tapmış İnsan-İblis paraleli ona qədər mövzud olan İblislə bağlı istər, mifoloji, istər kanonik, istərsə də bədii mətnlərdə öz əksini tapmış İblis obrazının ümumiləşdirilərək yeni interpretasiyada meydana çıxmasıdır.

**Ədəbiyyat Siyahısı**

AXUNDOV, M.F. (2007). *Secilmiş Əsərləri.* Şərq-Qərb.

CAVİD, Hüseyn. (2003a). *Əsərləri.* Üç ciddə, 2-ci cild. Bakı: Azərbaycan Mədəniyyət Fondu.

CAVİD, Hüseyn. (2003b). *Əsərləri.* Üç ciddə. 3-cü cild. Bakı: Azərbaycan Mədəniyyət Fondu.

CAVİD, Hüseyn. (2003c). *Əsərləri*. Üç cilddə. 1-ci cild. Bakı: Azərbaycan Mədəniyyət Fondu.

FUZULİ. (1958). Seçilmiş Əsərləri. Bakı.

GƏNCƏVI, Nizami. (2002). *Xəmsə.* Bakı: Turan.

GRIMM, J. (2007). *Deutsche Mithologie Vollstandige Ausqabe*. Band I+II Wiesbaden.

HAQVERDIYEV, Ə. (1971). *Seçilmiş Əsərləri*. C.1, Bakı: Dövlət Nəşriyyatı, s. 549.

HAQVERDIYEV, Ə. (1971). *Seçilmiş Əsərləri (Bədii nəsr və məqalələr),* C.2, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.

İBADOĞLU, Ə. (1969). *Hüseyn Cavidin "İblis Faciəsi".* Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı.

KRAMER, Samuel Noah. (2002). *Sümerler*. Kabalcı Yayınevi.

Mifı narodov mira (1987) Ensiklopediya. V II tomax, pered. red. S.a. tokarev. M., Sovetskaya ensiklopediya, 671 s., II tom 1988, 719 c., Lit., ter. 1600 stb.

MLADŞAYA, Edda. (1970). L., Nauka.

MÜQƏDDƏS KITAB (TÖVRAT, ZƏBUR, İNCIL). (2014). New York: Brooklyn, 1772.

QURANI-KƏRIMIN AZƏRBAYCAN DILINƏ TƏRCÜMƏSI, (2015). Bakı: Nurlar.

SABİR, M. Ə. (1962). *Hophopnamə.* I cild. Bakı.

URAZ, M. (1967). *Türk Mitolojisi*. Ankara.

**İnternet Resursları**

URL1: https://grimuar.ru/poltergeist/demonologiya/adam-lilit-pervaya-zhenshhina.html. (Erişim: 13.09.2019)

URL2: http://www.artkaspi.az/az/nesimi-ve-mif-kamran-eliyev-yazir/#.XM2a6-gzbIU. (Erişim: 13.09.2019)